**Azərbaycan və SOCAR-ın fəaliyyət sahəsi**
**üzrə test tapşırıqları**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrü hansı mərhələlərə ayrılır?**
**1. Hökumətin ilk addımları və tədbirləri dövrü**
**2. Dövlətin münaqişə dövrü**
**3. Dövlətin möhkəmlənməsi dövrü**
**4. Cümhuriyyətin zəifləməsi və süqutu dövrü**
**5. Dövlətin siyasi vəziyyətinin gərgin olduğu dövr**
A) 1, 2, 4
B) 2, 3, 4
C) 1, 3, 5
D) 2, 4
E) 1, 3, 4
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Vaqif Priyev, Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**2. Azərbaycanın İstiqlal Bəyannaməsi hansı şəhərdə və hansı orqan tərəfindən tərtib olunmuş və imzalanmışdır?**
A) Gəncədə, Nazirlər Şurası tərəfindən
B) Tiflisdə, Azərbaycan Milli Şurası tərəfindən
C) Gəncədə, Azərbaycan Parlamenti tərəfindən
D) Bakıda, Azərbaycan Milli Şurası tərəfindən
E) Gəncədə, Azərbaycan Milli Şurası tərəfindən
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Yaqub Mahmudov, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild, Bakı-2004

**3. Müsəlman Şərqində cümhuriyyət dövrünün demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan:**
A) Azərbaycan Parlamenti
B) Xalq Maarif Nazirliyi
C) Daxili İşlər Nazirliyi
D) Qarabağ general-qubernatorluğu
E) Əkinçilik və Əmək Nazirliyi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Tarix:
https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvMjdqcmMyYnlkcV9UYXJpeF9BWkUucGRmIl1d?sha=57585abf41021647 15.10.2018

**4. Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda təsis edilmiş ilk ali təhsil ocağı:**
A) Dövlət Konservatoriyası
B) Bakı Qızlar Universiteti
C) Əkinçilik İnstitutu
D) Azərbaycan Politexnik İnstitutu
E) Bakı Dövlət Universiteti
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Tarix:
https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvMjdqcmMyYnlkcV9UYXJpeF9BWkUucGRmIl1d?sha=57585abf41021647 15.10.2018

**5. "İstiqlal Bəyannaməsi"nin II maddəsinə görə yaradılan dövlətin idarə forması necə idi?**
A) "Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir"
B) "Müstəqil Azərbaycanın siyasi quruluş forması qarışıq xarakter daşıyan respublika idarə formasıdır"
C) "Müstəqil Azərbaycanın siyasi quruluş forması Prezidentli Respublikadır"
D) "Müstəqil Azərbaycanın siyasi quruluş forması Parlamentli Monarxiyadır"
E) "Müstəqil Azərbaycanın siyasi quruluş forması Super prezidentli respublikadır"
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Nəsiman Yaqublu, Cümhuriyyət Qurucuları, Bakı-2018

**6. Azərbaycan Respublikasının Dövlət Bayrağına aid deyil:**
A) 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib
B) Azərbaycan Respublikasının Suverenliyinin rəmzidir
C) İlk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb
D) Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir
E) Dövlət bayrağı bərabər enli üç şaquli zolaqdan ibarətdir
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** https://president.az/azerbaijan/symbols 15.10.2018

**7. Azərbaycan Respublikasının Dövlət gerbi təsdiq edilib:**
A) 1993-cü il yanvarın 19-da Konstitusiya Qanunu ilə
B) 1918-ci il noyabrın 9-da Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə
C) 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə
D) 1920-ci il mayın 3-də Azərbaycan Parlamentinin qərarı ilə
E) 1920-ci il yanvarın 30-da Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/symbols 15.10.2018

**8. Azərbaycanda ilk milli teatr binasını inşa etdirmişdir:**
A) Həsən bəy Zərdabi

B) Nəcəf bəy Vəzirov
C) Hacı Zeynalabdin Tağıyev
D) Nəriman Nərimanov
E) Mirzə Fətəli Axundzadə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Manaf Süleymanov, Azərbaycan Milyonçuları: Hacı Zeynalabdin Tağıyev, Bakı-Gənclik-1996

**9. 1994-cü il dekabrın 12-də "Əsrin müqaviləsi"ni ratifikasiya etdi:**
A) AR Nazirlər Şurası
B) AR Prezidenti
C) AR Milli Məclisi
D) AR Dövlət Neft Şirkəti
E) AR Baş Naziri
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** https://president.az/azerbaijan/contract 15.10.2018

**10. 2002-ci ildə "Əsrin müqaviləsin"də nəzərdə tutulan hansı neft kəmərinin təməli qoyulub?**
A) Bakı-Novorossiysk neft kəmərinin
B) Bakı-Tbilisi-Ceyhan neft kəmərinin
C) Şahdəniz neft kəmərinin
D) Azəri-Çıraq-Günəşli neft kəmərinin
E) Bakı-Supsa neft kəmərinin
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Neft-qaz layihələri https://president.az/pages/11/print 15.10.2018

**11. Bu layihələr birlikdə "Cənub Qaz Dəhlizi" kimi tanınır:**
**1. Qərb İxrac Boru Kəməri (QİBK)**
**2. Cənubi Qafqaz Boru Kəməri (CQBK)**
**3. Trans Anadolu Boru Kəməri (TANAP)**
**4. Bakı - Supsa Boru Kəməri (BSP)**
**5. Trans Adriatik Boru Kəməri (TAP)**
A) 2, 3, 5
B) 1, 2, 4
C) 2, 4
D) 3, 4, 5
E) 1, 4
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Neft-qaz layihələri https://president.az/pages/11/print 15.10.2018

**12. Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə hesab edilir:**

A) "Samsun-Ceyhan boru kəməri" layihəsi
B) "Çıraq Neft" layihəsi
C) "Transxəzər qaz kəməri" layihəsi
D) “Cənub Qaz Dəhlizi” layihəsi
E) "Şəfəq-Asiman" layihəsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Neft-qaz layihələri https://president.az/pages/11/print 15.10.2018

**13. TAP (Trans-Adriatic-Pipeline) layihəsinə aid fikirlərdən biri yalnışdır:**
A) TAP layihəsi üzrə dövlətlərarası Saziş 2013-cü ilin fevral ayında imzalanmışdır
B) TAP layihəsi "Qərb İxrac Boru Kəməri"nin tərkib hissəsinə daxildir
C) TAP layihəsi təbii qazı Yunanıstan və Albaniya ərazisindən keçməklə İtaliyaya nəql edəcək
D) TAP boru kəmərinin 2020-ci ildə istismara verilməsi planlaşdırılır
E) TAP layihəsi "Cənub Qaz Dəhlizi"nin bir hissəsidir
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Neft-qaz layihələri https://president.az/pages/11/print 15.10.2018

**14. Xəzər Dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından və Xəzər Dənizinin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və öz növbəsində bu ölkədən Avropaya nəqlini nəzərdə tutan layihə:**
A) "Qərb İxrac Boru Kəməri" layihəsi
B) TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsi
C) "Bakı-Novo-Filya qaz kəməri" layihəsi
D) "Bakı-Batum boru kəməri" layihəsi
E) "Samsun-Ceyhan boru kəməri" layihəsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Neft-qaz layihələri https://president.az/pages/11/print 15.10.2018

**15. Azərbaycanın mövqeyinin böyük geopolitik əhəmiyyəti ibarətdir:**
**1. Uzaq və böyük dövlətləri birləşdirən karvan yolları**
**2. Formalaşdırılmış bazar iqtisadiyyatı**
**3. Çindən Avropaya uzanan məşhur “İpək yolu”**
**4. Bir sıra şimal ölkələrini cənub ölkələri ilə birləşdirən ən əlverşli yollar**
**5. Neft-qaz strategiyası**
A) 1, 3, 4
B) 2, 3
C) 2, 4, 5
D) 1, 5
E) 2, 3, 5
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**16. Orta Araz çökəkliyi və Arazyanı silsilələr sahəsində yerləşən ərazi:**
A) Mingəçevir şəhəri
B) Talış silsiləsi
C) Yardımlı çökəkliyi
D) Naxçıvan Muxtar Respublikası
E) Lənkəran ovalığı
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**17. Azərbaycan Respublikasının ən böyük oroqrafik vahidləri hansılardır:**
**1. Böyük Qafqaz dağları**
**2. Geniş Kür çökəkliyi**
**3. Lənkəran-Talış dağları**
**4. Başsuayrıcı silsilə**
**5. Kiçik Qafqaz dağları**
A) 3, 4
B) 1, 3, 5
C) 1, 2, 5
D) 4, 5
E) 1, 2, 4
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**18. Azərbaycan Respublikasının çayları hansı qruplara bölünür?**
**1. Lənkəran hövzəsinin çayları**
**2. Kür hövzəsinin çayları**
**3. Bilavasitə Xəzərə tökülən çaylar**
**4.Viləş hövzəsinin çayları**
**5. Araz hövzəsinin çayları**
A) 2, 4, 5
B) 1, 2, 5
C) 1, 4
D) 2, 3, 5
E) 1, 5
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**19. Yayda quruyan çaylara aiddir:**
A) Kür, Tərtərçay, İncəçay
B) Sumqayıt, Ceyrankeçməz, Pirsaat
C) Samur, Kürəkçay, Qusarçay
D) Araz, Ceyrankeçməz, İncəçay

E) Kür, Samur, Kürəkçay
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**20. Xəzər dənizi ətrafı dövlətlər hansılardır?**
A) Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan
B) Azərbaycan, İran, Qırğızıstan, Qazaxıstan və Rusiya
C) Azərbaycan, Rusiya, Qazaxıstan, Özbəkistan və Türkmənistan
D) Azərbaycan, İran, Türkiyə, Qazaxıstan və Qırğızıstan
E) Azərbaycan, İran, Türkiyə, Türkmənistan və Qazaxıstan
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**21. Xəzərə çaylardan tökülən su kütləsinin 90%-i hansı üç çayın payına düşür?**
A) Acınohur, Ceyrançöl, Volqa
B) Viləşçay, Vəlvələçay, Arpaçay
C) Samur, Araz, Terek
D) Qusarçay, Tərtərçay, Samur
E) Kür, Volqa, Ural
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**22. Bütün Qafqaz regionunun ən böyük çayıdır:**
A) Araz çayı
B) Samur çayı
C) Qanıx çayı
D) Kür çayı
E) Ural çayı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**23. Kür çayı hansı ölkələrin ərazisindən axır?**
A) Azərbaycan, Gürcüstan və Türkmənistanın
B) Azərbaycan, Türkiyə və Gürcüstanın
C) Azərbaycan, Qazaxıstan və İranın
D) Azərbaycan, Türkmənistan və Gürcüstanın
E) Azərbaycan, Türkiyə və İranın
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov, Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**24. Rusiya Federasiyası və Gürcüstanla sərhəddə yerləşən inzibatı rayonlarımız:**
A) Qusar, Xaçmaz, Dəvəçi
B) Balakən, Qax, Zaqatala

C) Qazax, Siyəzən, Balakən
D) Qəbələ, Zaqatala, Xudat
E) Qax, Quba, Beyləqan
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 20.10.2018

**25. Gəncə-Qazax iqtisadi rayonu hansı inzibati rayonları əhatə edir?**
A) Xanlar, Cəlilabad, Salyan, Füzuli, İsmayıllı
B) Samux,Salyan, Xaçmaz, Ağdam, Qubadlı
C) Ağdaş, Kürdəmir, Yardımlı, Dəvəçi, Şərur
D) Zərdab,Tərtər, Ağstafa, Masallı, Ağsu
E) Daşkəsan, Gədəbəy, Goranboy, Qazax, Tovuz
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 20.10.2018

**26. Azərbaycan respublikasının üçüncü böyük şəhəri hansıdır?**
A) Şirvan şəhəri
B) Naftalan şəhəri
C) Sumqayıt şəhəri
D) Gəncə şəhəri
E) Bakı şəhəri
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 20.10.2018

**27. İranla sərhəddə yerləşən inzibatı rayonlarımız hansılardır?**
A) Yardımlı, Sabirabad, Ucar
B) Masallı, Göyçay, Neftçala, Lənkəran
C) Lənkəran, Saatlı, Yardımlı
D) Cəlilabad, Lerik, Yardımlı, Biləsuvar
E) Beyləqan, Qax, Lerik, Xudat
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf

**28. Tarixi reallığı əks etdirən hansı müqavilə, eyni zamanda, Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir?**
A) Moskva müqaviləsi
B) Kürəkçay müqaviləsi
C) Ərzincan müqaviləsi

D) Qars müqaviləsi
E) Ərzurum müqaviləsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**29. Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası hansı müqavilələrlə qoyulub?**
**1. Türkmənçay müqaviləsi**
**2. Moskva müqaviləsi**
**3. Gülüstan mqaviləsi**
**4. Kürəkçay müqaviləsi**
**5. Ərzurum müqaviləsi**
A) 1, 3
B) 2, 5
C) 3,4
D) 4,5
E) 1, 4
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**30. Hansı tarixi hadisə ilə 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu?**
A) Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə
B) Ümumi sənaye istehsalı üzrə doqquzuncu beşillik planın yerinə yetirilməsi ilə
C) "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə
D) Azərbaycanın bütün neftçıxarma tarixi dövründə milyardıncı ton «qara qızıl» çıxarılması ilə
E) Yeni Azərbaycan Partiyasının yaradılması ilə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**31. 20 Yanvar faciəsi Azərbaycan Respublikasında hər il hansı gün kimi qeyd edilir?**
A) Qanlı faciə günü
B) Ümumxalq şəhidlər günü
C) Qanlı cümə günü
D) Soyqırım günü
E) Ümumxalq hüzn günü
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**32. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqının qoşun hissələri kimin əmri ilə Bakıya yeridildi?**
A) V. Polyaniçkonun
B) M. Qorbaçovun
C) V. Mironenkonun
D) Ə. Vəzirovun
E) S. Şaumyanın
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**33. Ümummilli lider Heydər Əliyevin birinci prezidentliyi dövrünə aid tarixi hadisəni müəyyən edin:**
A) Bişkek protokolunun imzalanması
B) Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi
C) Azərbaycan Respublikasının İslam Konfransı təşkilatına üzv qəbul edilməsi
D) Yeni Azərbaycan Partiyasının yaradılması
E) TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsinə dair sazişin imzalanması
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**34. Dağlıq Qarabağ Muxtar Vilayəti yarandıqdan neçə il sonra ləğv edildi?**
A) 69
B) 71
C) 67
D) 74
E) 68
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Prezident kitabxanası, Dağlıq Qarabağ münaqişəsi, Bakı-2005

**35. "Əsrin müqaviləsi"nə uyğun olaraq çıxarılan neftin Avropa bazarlarına satılması üçün hansı neft kəmərləri çəkildi?**
A) Bakı-Tiblisi-Ceyhan və Bakı-Batum
B) Bakı-Nova-Filya və Hacıqabul-Astara-Abadan
C) Bakı-Novorossiysk və Bakı-Supsa
D) Bakı-Tiflis-Ərzurum və Cənubi Qafqaz
E) Kərkük-Ceyhan və Samsun-Ceyhan
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İradə Nuriyeva, Azərbaycan tarixi, Bakı-2015

**36. Azərbaycan Respublikasının 2008-ci il və 2018-ci il tarixlərinə aid oxşarlığı müəyyən edin:**
A) Milli Məclisə seçkilərin keçirilməsi
B) "Azərbaycan dili haqqında qanun"un qəbul edilməsi

C) Konstitusiyaya düzəlişlərə dair referendum keçirilməsi
D) Prezident seçkilərinin keçirilməsi
E) Bələdiyyələrə seçkiləri keçirilməsi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva, Azərbaycan tarixi, Bakı-2015

**37. 2017-ci ildə istifadəyə verilmiş hansı dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin edir?**
A) Bakı-Tbilisi dəmir yolu
B) Bakı-Tbilisi-Daşkənd dəmir yolu
C) Bakı-Tbilisi-Qars dəmir yolu
D) Bakı-Batumi dəmir yolu
E) Bakı-Asiya dəmir yolu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İradə Nuriyeva, Azərbaycan tarixi, Bakı-2015

**38. Aşağıda qeyd olunan balet tamaşalarından hansı ilk Azərbaycan baletidir?**
A) "Qaraca qız"
B) "Min bir gecə"
C) "Qırmızı lalə"
D) "Yeddi gözəl"
E) “Qız qalası”
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva, Azərbaycan tarixi, Bakı-2015

**39. İlk Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı kim olmuşdur?**
A) İsrafil Məmmədov
B) Aslan Vəzirov
C) Müseyib Bağırov
D) Mehdi Quliyev
E) Salahəddin Kazımov
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva, Azərbaycan tarixi, Bakı-2015

**40. Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli”(AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilərək yenidən imzalanmış Əsrin müqavilələsinin hansı müddətə kimi davam etdirilməsi nəzərdə tutulmuşdur?**
A) 20 sentyabr 1994-cü il tarixinədək
B) 20 sentyabr 2020-ci il tarixinədək
C) 31 dekabr 2049-cu il tarixinədək
D) 20 sentyabr 2049-cu il tarixinədək

E) 31 dekabr 2050-ci il tarixinədək
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://www.meclis.gov.az/?/az/stenoqram/467 13.10.2018

**41. 1949-cu il 7 noyabr tarixində Azərbaycanı və Xəzəri bütün dünyada məşhur edən hadisə:**
A) Bibiheybətdə ilk neft quyusu qazılmışdır
B) 2 milyardıncı ton neft hasil olunmuşdur
C) İkinci dəniz neft platforması inşa edilmişdir
D) Açıq dənizdə "Neft Daşları" yatağı aşkar edilmişdir
E) "Gürgan-dəniz", "Pirallahı", "Çilov adası" kimi yataqlar mənimsənilmişdir
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://socar.az/socar/az/company/about-socar/history-of-socar 13.10.2018

**42.“Əsrin müqaviləsi” ilə bağlı yanlış fikri müəyyən edin:**
A) Azərbaycanın neft-qaz sahəsinin dirçəlişinin başlanğıcıdır
B) 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdir
C) 1994-cü il sentyabrın 20-də Tiflisdə müqavilə imzalandı
D) 1994-cü il dekabrın 12-də Milli Məclis bu müqaviləni ratifikasiya etdi
E) “Azəri-Çıraq-Günəşli” yataqları blokunun kəşfiyyatı və istismarı üzrə bağlanmışdır
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** http://socar.az/socar/az/company/about-socar/history-of-socar 13.10.2018

**43. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni inzibati binasının təməl qoyma mərasimi nə vaxt keçirilmişdir?**
A) Oktyabr 2010-cu il
B) İyun 2000-ci il
C) Yanvar 1992-ci il
D) Oktyabr 1991-ci il
E) Sentyabr 2007-ci il
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/about-socar/socar-tower 13.10.2018

**44. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni inzibati binasının tikinti xidmətlərinin həyata keçirilməsi üçün elan olunmuş açıq müsabiqənin qalibi hansı şirkət olmuşdur?**
A) Dubayın “Six Construct” şirkəti
B) Malayziyanın “Conlay Construction Sdn Bhd” şirkəti
C) Türkiyənin “TEKFEN İnşaat və Təchizat” şirkəti
D) Dubayın “DAMAC Properties” şirkəti
E) Cənubi Koreyanın “Heerim Architects & Planners Co Ltd” şirkəti

**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/about-socar/socar-tower 13.10.2018

**45. Dünyada neft sənayesinin nailiyyətləri və problemlərinin hərtərəfli işıqlandırılmasında əvəzsiz rol oynayan ilk sahə mətbu orqanlarından biri hansıdır?**
A) "Molla Nəsrəddin" jurnalı
B) "Şeypur" jurnalı
C) "Elmi Əsərlər" jurnalı
D) "Azərbaycan Neft Təsərrüfatı" Jurnalı
E) "Zənbur" jurnalı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/azerbaijan-oil-industry-journal 13.10.2018

**46. Azərbaycanda ISO 9001, ISO 14001, OHSAS 18001 və ISO 10002 sertifikatlarını almış yeganə ali təhsil müəssisəsi hansıdır?**
A) Neftqazelmitədqiqatlayihə İnstitutu
B) Bakı Dövlət Universiteti
C) İnformasiya Texnologiyaları və Rabitə İdarəsi
D) Bakı Ali Neft Məktəbi
E) Təlim Tədris və Sertifikatlaşdırma İdarəsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad**:http://www.bhos.edu.az/az/page/3-banm-tarixi 13.10.2018

**47. Müvafiq fəaliyyətlər üzrə kompleks ekoloji monitorinq işləri aparan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin struktur vahidi hansıdır?**
A) Ekologiya İdarəsi
B) Təhlükəsizlik İdarəsi
C) "Əmək şəraiti normalarının işlənməsi" İdarəsi
D) Karbamid Zavodu
E) Fontana qarşı Dağmədənxilasetmə hərbiləşdirilmiş hissəsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad**:http://www.socar.az/socar/az/company/organization/environmental-department 13.10.2018

**48. Fontana qarşı Dağmədənxilasetmə hərbiləşdirilmiş hissəsi həyata keçirir:**
A) Axtarış-kəşfiyyat və istismar qazma işlərinin aparılmasını
B) İqtisadi göstəricilər və maliyyə modelləşdirilməsi üzrə təhlillərin aparılmasını
C) Gəmilərin səfərə çıxmasının və səfərdən qayıtmasının rəsmi qeydiyyatını
D) Müəssisə, təşkilatların və obyektlərin inzibati binalarının mühafizəsini
E) Neft, qaz, su təzahürlərinin bildirilməsi və ləğv edilməsini
**Testin çətinlik dərəcəsi:** asan

**İstinad**:http://www.socar.az/socar/az/company/organization/mines-rescue-ilitarized-service-of-blow-out-control 13.10.2018

**49. Geofizika və Geologiya İdarəsinin strukturuna daxil olan qurumlar hansılardır?**
**1. "Kəşfiyyatgeofizika"**
**2. "Kompleks Qazma İşləri"**
**3. "Mədəngeofizika"**
**4. "Avtonəqliyyat İdarəsi"**
A) 1, 3 B) 2, 4 C) 1, 4 D) 1, 2, 4 E) 3, 4
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad**:http://www.socar.az/socar/az/company/organization/geophysics-and-geology 13.10.2018

**50. H. Əliyev adına Bakı Dərin Özüllər zavodunda tikinti üçün hansı məhsullar istehsal olunur?**
**1. propilen, etilen**
**2. metal konstruksiyalar, sütunlar**
**3. polietilen, polipropilen**
**4. kranaltı tirlər, riqellər**
A) 1, 3 B) 2, 4 C) 1, 4 D) 3, 4 E) 1, 2
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad**:http://www.socar.az/socar/az/company/organization/heydar-aliyev-baku-deep-water-jacket-factory 13.10.2018

**51. Ammonyak, maye və dənəvər karbamid istehsalı bölmələrindən ibarət olacaq struktur vahid hansıdır?**
A) Karbamid Zavodu
B) Azərikimya İstehsalat Birliyi
C) Neft Kimya Kompleksi
D) SOCAR Polymer
E) Ekologiya İdarəsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/carbamide-plant 13.10.2018

**52. Aşağıda qeyd olunanlardan biri Kompleks Qazma İşləri Trestinin struktur bölümündə fəaliyyət göstərmir:**
A) "Abşeron" Qazma İşləri İdarəsi
B) "Qobustan" Kəşfiyyat Qazma İşləri İdarəsi
C) "Sahil" Qazma İşləri İdarəsi
D) "Qazmaservis və Logistika" İdarəsi
E) "Kəşfiyyatgeofizika" İstehsalat Bölümü
**Testin çətinlik dərəcəsi:** asan

**İstinad:**http://www.socar.az/socar/az/company/organization/integrated-drilling-trust 13.10.2018

**53. SOCAR-ın maraqlarına uyğun neft və neft məhsullarının ölkə daxilində və dünya bazarında səmərəli satışının həyata keçirilməsi məqsədilə yaradılmışdır:**
A) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi
B) İnformasiya Texnologiyaları və Rabitə İdarəsi
C) Əmək şəraiti normalarının işlənməsi idarəsi
D) Sərmayələr İdarəsi
E) SOCAR Polymer
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/marketing-and-operations 13.10.2018

**54. Neftin qəbulunu, neft emalı zavodlarına və ixraca nəql əməliyyatlarını həyata keçiren SOCAR-ın struktur vahidi hansıdır?**
A) Nəqliyyat İdarəsi
B) H.Əliyev adına Neft Emalı Zavodu
C) Neft Kəmərləri İdarəsi
D) Neftqaztikinti Tresti
E) Azneft İstehsalat Birliyi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/oil-pipelines-department 16.10.2018

**55. "Neftin Nəqli Departamenti" hansı İdarənin tərkibinə daxildir?**
A) Azəriqaz İstehsalat Birliyinin
B) Azneft İstehsalat Birliyinin
C) Neft Kəmərləri İdarəsinin
D) Karbamid Zavodunun
E) Qaz Emalı Zavodunun
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/oil-pipelines-department 16.10.2018

**56. Qaz İxrac İdarəsi tərəfindən qaz ixracı əsasən hansı ölkələrə həyata keçirilir?**
**1. Türkiyəyə**
**2. Gürcüstana**
**3. İran İslam Respublikasına**
**4. Çin Respublikasına**
**5. Rusiya Federasiyasına**
A) 2, 3, 5 B) 1, 2, 3 C) 4, 5 D) 1, 3, 5 E)1, 2, 4
**Testin çətinlik dərəcəsi:** asan

**İstinad:**http://www.socar.az/socar/az/company/organization/gas-export-department 16.10.2018

**57. SOCAR-ın inzibati binalarının məişət təsərrüfat xidməti ilə təmin edilməsini, neftçilərə və onların ailə üzvlərinə bədən tərbiyəsi və idman xidmətləri göstərilməsini həyata keçirən struktur vahid hansıdır?**
A) "Əmək şəraiti normalarının işlənməsi" İdarəsi
B) Təhlükəsizlik İdarəsi
C) Sosial İnkişaf İdarəsi
D) Təlim Tədris və Sertifikatlaşdırma İdarəsi
E) Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/social-development-department 16.10.2018

**58. Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin fəaliyyətinə daxildir:**
A) İşçilərin əməyin mühafizəsi və təhlükəsizlik qaydaları üzrə təlimatlandırılması
B) Sənayenin ehtiyaclarını ödəyən yüksək keyfiyyətli təlimlərin təşkili
C) Peşələr üzrə təlim-tədrisin beynəlxalq səviyyədə qurulması
D) Sənaye sahələri üçün yüksək ixtisaslı kadrların hazırlanması
E) Mərkəzləşdirilmiş qaydada şəbəkə sisteminin inzibatçılığının təmin edilməsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/education-training-and-certification-department 16.10.2018

**59. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra SOCAR-ın öz gücü ilə kəşf olunan ilk yataq hansıdır?**
A) "Ümid" qaz-kondensat yatağı
B) "Dan ulduzu" neft-qaz yatağı
C) "Qarabağ" neft yatağı
D) "Bibiheybət" neft yatağı
E) "Günəşli" neft yatağı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** http: http://www.socar.az/socar/az/activities/exploration/umid 30.10.2018

**60. XX əsrin sonları Azərbaycan neft sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur:**
A) "Cənub Qaz Dəhlizi" layihəsi
B) "Yeni Əsrin Müqaviləsi"
C) Trans-Adriatik Boru Kəməri layihəsi
D) "Əsrin müqaviləsi"
E) Trans-Anadolu qaz boru kəməri layihəsi

**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/activities/production/azeri-chirag-deep-water-gunashli 30.10.2018

**61. Aşağı Kür neftli-qazlı rayonuna daxil olan hansı neft yatağının mərkəzi hissəsi çoxlu palçıq vulkanları ilə mürəkkəbləşmişdir?**
A) "Kürovdağ"
B) "Kürsəngi"
C) "Daşgil"
D) "Binəqədi"
E) "Fatmai"
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://www.socar.az/socar/az/activities/production/kurovdagh 30.10.2018

**62. SOCAR, "Rusneft Abşeron İnvestments Limited" və SOCAR-ın Ortaq Neft şirkəti arasında 3 noyabr 2006-cı ildə tarixində imzalanmış Saziş hansı neft yataqlarının daxil olduğu blok üçün nəzərdə tutulmuşdur?**
A) "Zığ" və "Hövsan" neft yataqları
B) "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqları
C) "Mişovdağ" və "Kəlaməddin" neft yataqları
D) "Bahar" və "Qum dəniz" yataqları
E) "Sulutəpə" və "Masazır" neft yataqları
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:**http://www.socar.az/socar/az/activities/production/zigh-hovsan 30.10.2018

**63. SOCAR-ın hansı zavodunda Azərbaycan neftinin 24 çeşidindən 21-i emal olunur?**
A) Karbamid Zavodunda
B) Heydər Əliyev adına Neft Emalı Zavodunda
C) SOCAR Metanol Zavodu
D) Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu
E) Qaz Emalı Zavodu
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://socar.az/socar/az/company/organization/heydar-aliyev-oil-refinery 30.10.2018

**64. Aşağıda qeyd olunan məsələlərdən hansılar yalnız referendumla həll oluna bilər?**
**1. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi**
**2. Vergilər və dövlət büdcəsi**
**3. İcra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin seçilməsi**
**4. AR Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi**
A) 1, 3 B) 1, 2, 4 C) 1, 4 D) 3, 4 E) 2, 3
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**65. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından neçə il sonra müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunmuşdur?**
A) 77
B) 18
C) 4
D) 75
E) 5
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Vaqif Piriyev, Azərbaycan tarixi-siyasi coğrafiyası, Bakı 2006

**66. Azərbaycan Respublikasının Konstitusiyasına görə xalqı təmsil etmək hüququna malikdir:**
A) Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri
B) Dövlət başçısı
C) Baş Nazir
D) Milli Məclisin deputatları
E) Xalqın seçdiyi səlahiyyətli nümayəndələr
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**67. Azərbaycan Respublikasının Konstitusiyasına görə mülkiyyətin hansı növləri mövcuddur?**
**1. İctimai mülkiyyət**
**2. Bələdiyyə mülkiyyəti**
**3. Dövlət mülkiyyəti**
**4. Ümumi mülkiyyət**
**5. Xüsusi mülkiyyət**
A) 2,3,5 B) 1,2,3 C) 4,5 D) 2,3,4 E) 1,2,5
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**68. Hansı çaylar Azərbaycan və İran ərazisindən keçir?**
A) Kür və Araz çayları
B) Qanıx və Qabırrı çayları
C) Araz və Astara çayları
D) Kür və Samur çayları
E) Astara və Qanıx çayları
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**69. Dövlət rəmzlərinə aid məntiqi uyğunluğu tamamlayın:**
**1. Dövlət bayrağı**

**2. Dövlət himni**
**3. ......**
A) Dövlət dili
B) Pul vahidi
C) Dövlət gerbi
D) Paytaxt
E) AR Konstitusiyası
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**70. Azərbaycan Respublikasının dövlətçiliyinin varisliyini təmin edir:**
A) Prezident
B) Bələdiyyələr
C) Vətəndaşlar
D) Siyasi Partiyalar
E) Milli Məclisin deputatları
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**71. Azərbaycan Respublikası vətəndaşlarının əmək hüququ ilə bağlı verilən fikirlərdən hansı yanlışdır?**
A) Tam fəaliyyət qabiliyyəti olmayan şəxs işəgötürən ola bilər
B) Heç kəs zorla işlədilə bilməz
C) Əmək fərdi və ictimai rifahın əsasıdır
D) Əmək müqavilələri sərbəst bağlanılır
E) İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**72. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı xidmət edir:**
A) Bazar iqtisadiyyatının inkişafına
B) Strateji planlaşdırma prosesinə
C) İqtisadi tənzimləmədə münasibətlərin inkişafına
D) Xalqın rifahının yüksəldilməsinə
E) Planlı iqtisadiyyatda dövlət strategiyasına
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**73. Dərin dəniz özüllərinin layihələndirilməsi, hazırlanması, suya buraxılması, təyinat yerinə nəqli, layihə nöqtəsinə qoyulması, dayaqların bərkidilməsi və istismara buraxılması ilə məşğuldur:**
A) Heydər Əliyev adına Neft Emalı Zavodu
B) Karbamid Zavodu

C) Neft Kəmərləri İdarəsi
D) Nəqliyyat İdarəsi
E) Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/heydar-aliyev-baku-deep-water-jacket-factory 13.10.2018

**74. Azərbaycanın ən yüksək urbanizasiyalaşmış rayonu hansıdır?**
A) Aran
B) Ordubad
C) Quba-Xaçmaz
D) Abşeron
E) Gəncə-Qazax
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://gsaz.az/articles/view/120/Azarbaycan-Respublikasinin-Ahalisi 27.10.2018

**75. Hansı kəmərlə nəql edilmiş ixrac xam nefti yüklənmiş ilk tanker 2006-cı il iyunun 4-də yola salınmışdır?**
A) Bakı-Novorossiysk Neft Kəməri
B) Bakı-Batum Neft Kəməri
C) Bakı-Supsa Qərb İxrac Boru Kəməri
D) Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri
E) Kərkük-Ceyhan Neft Kəməri
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** http://www.socar.az/socar/az/activities/transportation/baku-tbilisi-ceyhan-btc-main-export-oil-pipeline 13.10.2018

**76. Ən sıx əhali Azərbaycanın hansı zonasındadır?**
A) Mingəçevir, Göyçay, Kürdəmir
B) Şəki, Zaqatala, Oğuz
C) Abşeron, Gəncə-Qazax və Lənkəran
D) Qəbələ, İsmayıllı, Quba, Xaçmaz
E) Sabirabad, İmişli, Saatlı
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://gsaz.az/articles/view/120/Azarbaycan-Respublikasinin-Ahalisi 27.10.2018

**77. Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirir:**
A) Dübəndi Terminalı
B) Bakı-Novorossiysk Neft Kəməri
C) Bakı-Supsa Qərb İxrac Boru Kəməri
D) SOCAR Gas Export-Import MMC
E) Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri

**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://www.socar.az/socar/az/activities/transportation/baku-supsa-western-export-pipeline 13.10.2018

**78. Türkiyə sənayesini xammalla təchiz edən şirkət hansıdır?**
A) SOCAR Trading
B) SOCAR Turkey Enerji A.Ş.
C) Petkim Petrokimya Holdinq A.Ş.
D) Dübəndi Terminalı
E) SOCAR&Turcas Enerji A.Ş.
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** http://www.socar.az/socar/az/activities/chemicals/petkim 13.10.2018

**79. SOCAR-ın Gürcüstandakı ilk və ən mühüm investisiyalarından biri hansıdır?**
A) Dübəndi neft terminalı
B) Ceyhan Terminalı
C) Səngəçal neft terminalı
D) Kulevi neft terminalı
E) Bakı neft terminalı
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:**http://www.socar.az/socar/az/activities/transportation/baku-tbilisi-erzurum-gas-pipeline 13.10.2018

**80. SOCAR-ın hasil etdiyi xam neft həcmlərinin Ceyhan limanından satışını həyata keçirən şirkət hansıdır?**
A) TEKFEN İnşaat və Təsisat A.Ş.
B) AzFen B.M.
C) "Atəşgah" Sığorta Şirkəti
D) "Petkim"
E) "SOCAR Trading"
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** http://www.socar.az/socar/az/activities/services/socar-trading 13.10.2018

**81. 2018-ci il iyunun 12-də:**
A) Türkiyənin Qars şəhərində Bakı-Tbilisi-Qars qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib
B) Türkiyənin Ankara şəhərində TAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib
C) Türkiyənin İstanbul şəhərində Yeni Saziş imzalanıb
D) Türkiyənin Əskişəhər şəhərində TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib
E) Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz boru kəməri) istifadəyə verilib

**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Neft-qaz layihələri. https://president.az/azerbaijan/contract 27.10.2018

**82. Azərbaycan Respublikasının Konstitusiyasına görə Azərbaycan xalqı:**
A) Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir
B) Səsvermə hüququna malik olan və 18 yaşa çatmış bütün vətəndaşlardır
C) Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir
D)Azərbaycan Respublikası ərazisində yaşayan və Azərbaycan vətəndaşlığını qəbul etmiş vətəndaşlardan ibarətdir
E) Seçkilərdə iştirak etmək hüququna malik və 16 yaşına çatmış vətəndaşlardan ibarətdir
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**83. Azərbaycan Respublikasının Konstitusiyasına görə Azərbaycan xalqının suveren hüququ:**
**1. Sərbəst və müstəqil olaraq öz müqəddəratını həll etmək**
**2. Sülh bağlamaq və ya müharibə elan etmək**
**3. Referendumda iştirak etmək**
**4. Hakimiyyətin bölünməsində iştirak**
**5. Öz idarəetmə formasını müəyyən etmək**
A) 1, 4
B) 2, 5
C) 1, 3
D) 3, 5
E) 1, 5
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**84. Azərbaycan xalqı öz suveren hüququnu:**
A) Bilavasitə və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir
B) Bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir
C) Ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir
D) Birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir

E) Bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, açıq və kollektiv səsvermə yolu ilə təyin edilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**85. Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının:**
A) Nazirlər Kabineti həyata keçirir
B) Prezidenti həyata keçirir
C) Dövlət Katibliyi həyata keçirir
D) Ali Məhkəməsi həyata keçirir
E) Milli Məclisi həyata keçirir
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**86. Azərbaycan Respublikasının İcra hakimiyyəti kimə mənsubdur?**
A) Azərbaycan Respublikasının Prezidentinə
B) Azərbaycan Respublikasının Nazirlər Kabinetinə
C) Azərbaycan Respublikasının Milli Məclisinə
D) Azərbaycan Respublikasının Ali Məhkəməsinə
E) Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**87. Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə nə vaxt qəbul edilib?**

A) 9 noyabr, 1995
B) 17 noyabr, 1995
C) 12 noyabr, 1993
D) 12 noyabr, 1995
E) 5 noyabr, 1995
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**88. Aşağıdakı hansı məsələlər yalnız referendumla həll oluna bilər?**
**1. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi**

**2. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və ona dəyişikliklər edilməsi**
**3. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi**
**4. Seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi**
**5. Vergilər və dövlət büdcəsi**
A) 1, 5
B) 2, 3
C) 1, 3
D) 2, 4
E) 1, 4
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**89. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:**
**1. Vergilər və dövlət büdcəsi**
**2. Seçkilərin təyin edilməsi**
**3. Amnistiya və əfv etmə**
**4. Seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi**
**5. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi**
A) 1, 2, 3
B) 1,3, 4
C) 2, 3, 5
D) 3, 4, 5
E) 1, 4, 5
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**90. Dövlətin ali məqsədi:**
A) İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi
B) Başqa dövlətlərlə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərin təmin edilməsi
C) Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd etməsi
D) mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruması
E) Bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratması
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**91. Azərbaycan Respublikasında mülkiyyətin növləri:**
**1. Dövlət 2. Şirkət 3. Xüsusi 4. İctimai 5. Bələdiyyə**
A) 1, 2, 3
B) 2, 4, 5
C) 1, 3, 5
D) 1, 4, 5
E) 3, 4, 5
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**92. Düzgün cavabı seçin.**
A) Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni seçkilər yolu ilə həll edə bilər
B) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi hüququ Azərbaycan Respublikasının Milli Məclisinə məxsusdur
C) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi hüququ Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məxsusdur
D) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi hüququ Azərbaycan Respublikasının Prezidentinə məxsusdur
E) Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**93. Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən ......... mənsubdur.**
A) Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına
B) Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarına
C) Azərbaycan xalqına
D) Azərbaycan Respublikasına
E) Təbii Sərvətlər və Ekologiya Nazirliyinə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**94. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı ........ əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.**
A) Müxtəlif mülkiyyət növlərinə
B) Bələdiyyə mülkiyyəti növünə
C) Eyni mülkiyyət növünə
D) Dövlət mülkiyyət növünə
E) Xüsusi mülkiyyət növünə
**Testin çətinlik dərəcəsi:** mürəkkəb

**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**95. Azərbaycan Respublikasının Konstitusiyasına görə:**
A) 14 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
B) 18 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
C) 17 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
D) 16 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
E) 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**96. Azərbaycan Respublikasının Konstitusiyasına görə dövlət təhsil sistemi ........ xarakter daşıyır.**
A) Beynəlxalq
B) Yerli
C) Yerli və beynəlxalq
D) Dünyəvi
E) Dini və dünyəvi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**97. Azərbaycan Respublikasının Konstitusiyasına görə aşağıda göstərilənlərdən kimlərin seçilmək hüququ məhdudlaşdırıla bilər?**
A) Fəhlələrin
B) Hakimlərin
C) Müəllimlərin
D) Həkimlərin
E) Vəkillərin
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**98. Azərbaycan Respublikasının Konstitusiyasına görə ...... müraciət etmək hüququndan yalnız fərdi qaydada istifadə edə bilərlər.**
A) Hakimlər
B) Millət vəkilləri
C) Hərbi qulluqçular
D) Bələdiyyə üzvləri
E) Nazirlər
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**99. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələsi həll edilə bilər:**

A) Yalnız Prezidentin fərmanı ilə
B) Yalnız referendum yolu ilə
C) Referdendum və Milli Məclisin qərarı ilə
D) Prezidentin sərəncamı ilə
E) Nazirlər Kabinetinin qərarı ilə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**100. Azərbaycan Respublikasının Konstitusiyasına görə Azərbaycan dövlətinin təməlini təşkil edir:**
A) Azərbaycan xalqının vahidliyi
B) Azərbaycanın hakimiyyəti
C) Azərbaycan vətəndaşlarının bölünməzliyi
D) Azərbaycan milləti
E) Azərbaycan qanunları
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**101. Azərbaycan Respublikasının Konstitusiyasına görə tənqidə görə .......**
A) Hüquq mühafizə orqanlarının razılığı ilə aparıla bilər
B) Müvafiq qanuna görə aparıla bilər
C) Cəza qadağandır
D) Təqib qadağandır
E) İnizbati tənbeh qadağandır
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**102. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız ............ xitam verilə bilər.**
A) Milli Məclisin qəbul etdiyi qanun əsasında
B) Nazirlər Kabinetinin qərarı əsasında
C) Təşkilatın öz qərarı ilə
D) Prezidentin fərmanı ilə
E) Məhkəmə qaydasında
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**103. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı hansı fəaliyyəti həyata keçirir?**
A) Planlaşdırmanı həyata keçirir
B) Tənzimləməni həyata keçirir
C) Rəhbərliyi həyata keçirir
D) Əlaqələndirməni həyata keçirir

E) İnteqrasiyanı həyata keçirir
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**104.Azərbaycan Respublikasının Konstitusiyasına görə hakimiyyətin mənimsənilməsi:**
A) Qəbul olunandır
B) Vətənə xəyanətdir
C) Milli Məclisin qərarı ola bilər
D) Xalqa qarşı ən ağır cinayətdir
E) Nazirlər Kabinetinin qərarı ilə ola bilər
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**105.Azərbaycan Respublikasının Konstitusiyasına görə hansı fikir doğrudur?**
A)Azərbaycan Respublikasında 16 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər
B) Azərbaycan Respublikasında dövlət təhsil sistemi beynəlxalq və yerli xarakter daşıyır
C)Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır
D)Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsinə icazə verilir
E)Azərbaycan Respublikasında dövlət təhsil sistemi dünyəvi və dini xarakter daşıyır
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**106.Azərbaycan Respublikasının Konstitusiyasına görə hansı mülkiyyət növü sosial öhdəliklərə səbəb olur?**
A) Bələdiyyə mülkiyyəti
B) Ailə mülkiyyəti
C) Torpaq mülkiyyəti
D) Xüsusi mülkiyyət
E) Dövlət mülkiyyəti
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**107.Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hansı fikir doğrudur?**
A) Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin hüququdur
B) Ətraf-mühitin qorunması hər bir şəxsin hüququdur
C) Məhkəmənin hökmü olmasa belə kimsə cinayətdə təqsirli sayıla bilər
D) Hər kəsin başqaları ilə birləşmək vəzifəsi vardır
E) Qanunu bilməmək məsuliyyətdən azad etmir
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**108. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım .......... göstərilir.**
A) Ödənişli, şəxsin öz hesabına
B) Ödənişsiz, dövlət hesabına
C) Ödənişli, dövlət hesabına
D) Ödənişsiz, həmkarlar təşkilatının hesabına
E) Konstitusiyada belə bir maddə yoxdur
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**109.Azərbaycan Respublikasının Konstitusiyasına görə aşağdakılardan hansı vətəndaşların əsas vəzifəsinə aiddir?**
A) Vətəndaşlıq hüququnun təminatı
B) Fikir və söz azadlığı
C) Müraciət
D) Birləşmək
E) Dövlət rəmzlərinə hörmət
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**110.Azərbaycanda 1872-ci ilin fevralın 17-də iltizam sistemi ləğv olundu. Qanuna əsasən:**
A) Neft yataqları milliləşdirilidi
B) Neft yataqları yalnız xarici şirkətlərə satıla bilərdi
C) Dövlət bütün neft yataqlarını dövlətləşdirdi
D) Neft yataqları ayrı-ayrı şəxslərə birdəfəlik satıla bilərdi
E) Neft yataqları müxtəlf şəxslərə qanunla müəyyən olunmuş müddətə satılırdı
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**111. 1872-ci ildə Azərbaycanda iltizam sisteminin ləğvi neft sənayesində nəyə səbəb oldu?**
A) Neft yataqlarının müxtəlif şirkətlərə satılması neft sənayesində xaosa səbəb oldu
B) Azərbaycan neft sənayesinin Rusiya iqtisadiyyatının xammal əlavəsinə çevrildi
C) Dünya bazarında neftin qiymətinin kəskin artmasına səbəb oldu
D) Xarici kapital axını ilə neft hasilatının və emalı texnikasının yaxşılaşmasına, neft məhsullarının daşınma vasitələrinin təkmilləşdirilməsinə səbəb oldu
E) Azərbaycan neft səanyesinin milliəşməsinə səbəb oldu
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**112. Hələ 1871-ci ildə ......buruqla ilk neft quyusu qazılıb istifadəyə verilmişdi.**

A) Sabunçuda
B) Suraxanıda
C) Balaxanıda
D) Bibiheybətdə
E) Bayılda
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**113. 1873-cü ildə .... ilk neft fontanı vurdu.**
A) Suraxanıda
B) Kürdəxanıda
C) Bayılda
D) Ələtdə
E) Balaxanıda
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**114. Neft məhsullarına marağın artması 1873-cü ildə hansı zavodlar rayonunun yaranmasına səbəb oldu?**
A) Qara şəhər
B) Ağ şəhər
C) Neft daşları
D) Balaxanı
E) Suraxanı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**115. Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran ilk sənayeçi:**
A) M.Nağıyev
B) Ş.Əsədullayev
C) H.Z.Tağıyev
D) İ.Musabəyov
E) M.Muxtarov
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**116. XIX əsrin sonunda Şimali Azərbaycanda hansı krteriyalara görə balıq sənayesi neft sənayesindən sonra 2-ci yerdə dururdu?**
A) Neftin ümumi hasilatına görə
B) Xarici kapitalın həcminə görə
C) Xarici şirkətlərin və xarici işçilərin sayına görə
D) Mill kapitalın üstünlüyünə görə

E) İstehsal olunan məhsulların ümumi dəyəri və fəhlələrin sayına görə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**117. Bakı Xalq Komissarları Soveti sosialist tədbirləri adı altında 1918-ci ildə neft sənayesini və Xəzər Ticarət Donanmasını:**
A) Özəlləşdirdi
B) Xarici şirkətlərə satdı
C) Milliləşdirdi
D) Yalnız Rus şirkətlərinə satdı
E) Hərbiləşdiridi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**118. Bakıda öz hesabına "Bakı rus-müsəlman qadın məktəbi" kim tərəfindən açılmışdır?**
A) M.Nağıyev
B) H.Z.Tağıyev
C) M.Muxtarov
D) N.Nərimanov
E) Ş.Əsədullayev
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

**119. İlk dəfə 1913-cü il oktyabrın 25-də milli musiqili teatr səhnəsində göstərilən hansı musiqili komediya böyük müvəffəqiyyət qazandı?**
A) O olmasın, bu olsun
B) Ər və Ərvad
C) Arşın mal alan
D) Ulduz
E) Sevil
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2015

